

***Dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Çünki təhlükəsizlik orqanının əməkdaşları cəmiyyətdə yüksək etimada, eyni zamanda, yüksək səlahiyyətə malikdirlər. Gərək hər bir əməkdaş bunların müqabilində öz məsuliyyətini dərk edə bilsin və üzərinə düşən vəzifəni yerinə yetirə bilsin.***

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

# Siyasət dahisi

İkinci dünya müharibəsindən və xüsusilə də “Xruşşov istiləşməsi”ndən sonra SSRİ rəhbərliyindən milli ucqarlara qarşı münasibət müəyyən qədər yumşalsa da, Azərbaycanda milli elitanın keyfiyyət göstəriciləri heç də xalqın potensialına cavab vermirdi. Respublikada yaşlı əhalinin tərkibində ali təhsillilərin say nisbəti orta İttifaq göstəricilərindən aşağı idi. Nəinki XX əsr elm, ədəbiyyat və texniki istiqamətdə ziyalı nümayəndələri, hətta bu sahələr üzrə Azərbaycan xalqının tarixi şəxsləri belə həm dünya, həm də İttifaq səviyyəsində zəif tanınırdı.

XX əsrin ortalarından başlayaraq bu boşluğu aradan qaldırmaq üçün siyasi səhnədə tədricən nüfuz qazanmağa başlayan Heydər Əliyev uğurlu fəaliyyətə keçdi. O, bu istiqamətdə ilk addımlarını respublika təhlükəsizlik xidməti orqanlarında çalışdığı dövrdə atmağa başladı. Bir tərəfdən, bu struktura bacardığı qədər milli kadrlar cəlb etməklə, o, Azərbaycan xalqının milli maraqlarına güclü dayaq dəstəsi yaradırdı. Təhlükəsizlik orqanlarına işə götürülən azərbaycanlı gənclərin özləri də sonradan milli elitanın qorunmasında, onlara qarşı təqiblərin qarşısının alınmasında mühüm rol oynadılar. Eyni zamanda, Heydər Əliyev tərəfindən təhlükəsizlik orqanlarına işə götürülən gənclər sonradan başqa sahələrə keçərək özləri Azərbaycan ziyalı təbəqəsinin aparıcı fiqurlarına çevrilir və respublikada milli düşüncənin yayılmasında fəal iştirak etdilər. Heydər Əliyev DTK rəhbərliyində olduğu müddətdə, ilk növbədə, çoxsaylı Azərbaycan ziyalılarının təqib edilməsinin və yaradıcılığına qadağalar qoyulmasının qarşısını aldı. Məhz bu səbəbdəndir ki, onun DTK-ya və Azərbaycan SSRİ-yə rəhbərliyi dövründə Azərbaycanda heç kəs millətçilik, antisovet təbliğatı və dissident hərəkatlarında iştirakına görə cinayət məsuliyyətinə cəlb edilmədi. Onun DTK sədri kimi müxtəlif ziyalı kollektivləri ilə və təklikdə görüşlərində onları yaradıcılığa səsləyir, Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı tədqiqatları dəstəkləyirdi. Həmin dövrdə erməni millətçilərinin ziyalılarımızın ləkələnməsinə yönəlmiş hərəkətlərinin qarşısı qətiyyətlə alınırdı. Azərbaycan ziyalılarının qorunması və qayğı göstərilməsi prosesi Heydər Əliyevin respublikaya rəhbər təyin edilməsi ilə daha da genişləndi və bu, bir sistem halını almağa başladı.

Heydər Əliyevin 1969-cu ildən Azərbaycanın birinci şəxsi olması onun milli ziyalı təbəqəsini yaratması üçün imkanlarını xeyli genişləndirdi. Respublikanın imkanlarının ittifaq tərəfindən məhdudlaşdırılmasına, ciddi ideoloji çərçivələrin mövcudluğuna, eləcə də erməni millətçilərinin Moskvaya təsirinə baxmayaraq, 13 illik birinci siyasi hakimiyyəti dövründə böyük və əhəmiyyətli işlər görməsi mümkün oldu. İlk növbədə, Azərbaycanda ana dilinin rus dili ilə yanaşı, dövlət, məhkəmə və gündəlik ünsiyyət dili kimi işlənməsi üçün mühüm addımlar atıldı. Bu istiqamətdə Heydər Əliyev hələ DTK sədri işləyən dövrdə də əhəmiyyətli işlər görmüşdü. Onun əmək kollektivlərində görüş zamanı Azərbaycan dilində danışması, 1969-cu ilin payızında “Kommunist” qəzetinin (indiki “Xalq qəzeti”) və Azərbaycan Dövlət Universitetinin 50 illik yubileylərində Azərbaycan dilində çıxış etməsi cəmiyyətdə ciddi əks-səda doğurmuşdu. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili rəsmən dövlət dili elan edildi. Bu, milli özünüdərk yolunda atılan ən mühüm addımlardan biri idi. Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusu almasını, sadəcə, dil məsələsi kimi deyil, həm də azərbaycançılıq məsələsi kimi dəyərləndirirdi.

Heydər Əliyevin təhlükəsizlik orqanlarında, Azərbaycanda 1-ci və 2-ci siyasi hakimiyyəti dövründə və SSRİ rəhbərliyindəki fəaliyyətinin əsas nəticələrindən biri də respublikada ziyalı təbəqəsini formalaşdırmağı, qorumağı və Azərbaycandan kənarda tanıtmağı oldu. Hər bir xalqın və ölkənin inkişafının göstəricilərindən biri də onun hər dövrdə ziyalı təbəqəsinin yaranması və sonradan həmin təbəqənin cəmiyyətin keyfiyyət göstəricilərinin yüksəlməsinə dəstək verməsidir. Azərbaycan ziyalı təbəqəsinin formalaşmasına olan qayğı Heydər Əliyev fəaliyyətinin növbəti mərhələlərində də uğurla davam etdirildi. Onun müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə isə bu siyasət yaranmış yeni situasiyadan irəli gələrək, daha dərin və daha məzmunlu həyata keçirilməyə başlandı.

1969–1982-ci illərdə Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda altı yeni ali məktəb, Naxçıvan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Mühəndislər İnstitutu, Azərbaycan Texniki İnstitutu, Xankəndi Pedaqoji İnstitutu və Sumqayıt Ali Texniki Təhsil Məktəbi açıldı. Bunlarla yanaşı, dünyanın müxtəlif şəhərlərinin nüfuzlu ali məktəblərində Azərbaycan üçün yüksək ixtisaslı kadr hazırlığına diqqət yetirilməyə başlandı. İldən-ilə artan tələbə göndərişi ötən əsrin 80-ci illəri üçün hər il iki min nəfərə yaxın göndəriş səviyyəsinə gəlib çatmışdı. 1983-cü ildə SSRİ-nin 49 şəhərinin 170 ali məktəbində 244 ixtisas üzrə azərbaycanlı tələbələr təhsil alırdılar. Təhsilini başa vurandan sonra onlar Azərbaycana qayıdaraq mütəxəssis kimi çalışır, bir qismi isə təhsil aldıqları bölgədə qalaraq, elm, incəsənət, iqtisadiyyat sahələrində Azərbaycanı layiqincə təmsil edərək, diasporumuzun əsasını yaradırdılar.

Azərbaycanın xüsusi xidmət orqanlarının əsl inkişafı, bu strukturlarda milliləşmə prosesi 50-ci illərdən etibarən ulu öndər Heydər Əliyevin fədakarlığı və qətiyyəti sayəsində başlamışdır. Məhz Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsinə, sonradan respublikaya rəhbər təyin olunmasından sonra bu orqanlara dövlət qayğısı gücləndi, onun sıralarının saflaşdırılmasına, xalqa, vəzifə borcuna sədaqətli kadrların irəli çəkilməsinə, əməkdaşların vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında təlim-tərbiyəsinə, peşəkarlığının yüksəldilməsinə xüsusi önəm verilmişdir.

1953-cü ildə Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinə rəis təyin olunan Heydər Əliyev təzyiqlərə baxmayaraq, təhlükəsizlik orqanlarının yad ünsürlərdən təmizlənməsində, azərbaycanlaşdırma siyasətinin aparılmasında, milli kadrların irəli çəkilməsində böyük cəsarət, prinsipiallıq və hünər göstərmişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda dövlət təhlükəsizliyi sistemində əhəmiyyətli işlər görülmüş və gələcək müstəqil Azərbaycanın milli kadr potensialının formalaşmasında ulu öndərin böyük xidmətləri olmuşdur. 1967-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə uzun onilliklərdən sonra ilk dəfə olaraq azərbaycanlının –Heydər Əliyevin təyin edilməsi bu orqanların tarixində yeni bir səhifənin başlanğıcı idi. Məhz o illərdən başlayaraq bu strukturda ilk azərbaycanlı general olan dahi şəxsiyyətin uzaqgörən və məqsədyönlü fəaliyyəti nəticəsində təhlükəsizlik orqanlarında milli kadrların hazırlanması və irəli çəkilməsinə geniş yer verildi.

Azərbaycan tarixində ilk dəfə olaraq xüsusi xidmət orqanları üçün peşəkar kadrlar hazırlayan ali təhsil müəssisəsinin yaradılması da ulu öndərin iyirmi il öncə böyük uzaqgörənliklə qəbul etdiyi qərarla reallığa çevrilmişdir.

2005-ci il dekabrın 20-də təhsil ocağına ulu öndərin adının verilməsi barədə Akademiyanın şəxsi heyəti möhtərəm Prezident cənab İlham Əliyevə müraciət etmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın təhlükəsizlik orqanlarının inkişafında əvəzsiz xidmətlərini, xatirəsinin əbədiləşdirilməsini və akademiyanın kadr hazırlığı sahəsində qazanılmış nailiyyətlərini nəzərə alaraq təhsil ocağına dahi rəhbərin adı verilmişdir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra digər dövlət qurumları ilə birgə təhlükəsizlik orqanlarının da yenidən qurulmasına təkan verildi. Lakin ilk illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsiz idarəçiliyi, qətiyyətsiz mövqeyi və şəxsi ambisiyaları ucbatından respublikanı xaos bürümüş, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsi yaranmışdı.

Məhz belə bir vaxtda –1993-cü ilin iyun ayında Azərbaycan xalqının təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər dövlət quruculuğunun bütün sahələrində, o cümlədən, təhlükəsizlik orqanlarının formalaşmasında böyük islahatlar həyata keçirdi. Təhlükəsizlik orqanlarının normal fəaliyyətini təmin etmək üçün onun qanunvericilik bazasını yenidən təkmilləşdirdi və vəzifələrini müəyyənləşdirdi.

Müstəqil Azərbaycanın təhlükəsizlik orqanları qarşısında duran başlıca vəzifə Azərbaycan Respublikasının suverenliyinin, konstitusiya quruluşunun, iqtisadi, müdafiə və elmi-texniki potensialının, həmçinin həyati əhəmiyyətli digər maraqlarının qorunması idi. Xarici dövlətlərin xüsusi xidmət orqanlarının, cinayətkar birliklərin və ayrı-ayrı şəxslərin kəşfiyyat-pozuculuq və terror-təxribat fəaliyyətlərinin qarşısının alınması, terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürlərinə qarşı mübarizənin səmərəli təşkili əməliyyat-axtarış və xidməti fəaliyyətin mühüm istiqamətləri kimi həllini gözləyirdi.

Ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi ilə dövlət orqanlarının birgə və əməli fəaliyyəti nəticəsində vətəndaş müharibəsi təhlükəsindən qurtulmuş respublikada qısa bir müddət ərzində əmin-amanlıq, ictimai-siyasi sabitlik təmin edildi, təhlükəsizlik və asayiş bərqərar olundu. Ölkədə dövlət quruculuğunun möhkəmləndirilməsi, sosial-psixoloji tənəzzülün və siyasi gərginliyin tədricən aradan qaldırılması, Azərbaycanda baş verən hadisələrin həqiqi demokratik müstəviyə keçirilməsi istiqamətində mühüm işlər görüldü. Dövlət əleyhinə yönəlmiş qəsdlərin qarşısının alınması, eləcə də qanunsuz silahlı qruplaşmaların ləğvi istiqamətində qətiyyətli tədbirlər həyata keçirildi.

Xalqımız birmənalı olaraq Heydər Əliyev siyasi kursunu dövlətin müqəddəratının əsas təminatçısı, Azərbaycanın qüdrətlənməsinin və inkişafının yeganə qarantı kimi qəbul edir. Ulu öndərin 2003-cü ilin prezident seçkiləri ərəfəsində “Mən Ona özüm qədər inanıram” – deyə siyasi fəaliyyətinə zəmanət verdiyi cənab İlham Əliyevə olan misilsiz ümummilli etimadın da əsas amili məhz bu kursun davamlılığına olan xalqın tələbi və istəyi idi. Möhtərəm Prezidentin fəaliyyətə başlayarkən “Mən hər bir azərbaycanlının Prezidenti olacağam” fikirləri ötən dövrdə tam əksini tapmış, ölkə rəhbərinə olan sonsuz xalq inamını şərtləndirmişdir.

Ömrünün 25 ilini xüsusi xidmət orqanlarında fəaliyyətə həsr edən ümummilli lider Heydər Əliyevin dövlətçilik ənənələrinin və amallarının yaşadılması Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyətinin dəyişməz prinsipidir. Bu prinsipin əsasında dövlət müstəqilliyinin əbədiliyinin və dönməzliyinin qorunması, sabitliyin və təhlükəsizliyin etibarlı təmin olunması, ölkəmizin hərtərəfli inkişafı və daha da qüdrətlənməsi dayanır. Həmçinin bu prinsipin əsas halqalarından birini işğal altındakı ərazilərimizin azad edilməsi kimi məsuliyyətli və taleyüklü bir vəzifə durudu ki, bu da ümummilli liderin siyasi kursunun layiqli davamçısı, möhtərəm cənab Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əzmi və iradəsi nəticəsində gerçəkləşdi.

Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uğurlu və məqsədyönlü daxili və xarici siyasət kursu diplomatiya sahəsində olduğu kimi, döyüş meydanında da öz sözünü dedi. Dövlətimiz 44 günlük əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə başa çatdırdı. Vətən müharibəsi bizim böyük Zəfərimizlə bitdi. Zəfərimizə mənəvi məna verən isə 28 il işğal altında olan torpaqlarımızı, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin hərbi döyüşlərlə azad edilməsi oldu. Beləliklə, Azərbaycan son iki əsrlik tarixində ilk dəfədir ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Azərbaycan Ordusunun əldə etdiyi tarixi zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir.

Bu gün anım gününü qeyd etdiyimiz ümummilli lider Heydər Əliyev artıq 19 ildir ki, aramızda yoxdur. Lakin onun ideyaları, siyasi irsi, yaratdığı dövlətçilik məktəbi, ulu öndərin şah əsəri olan, uğrunda mübarizə apardığı, ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan xilas etdiyi müstəqil və demokratik Azərbaycan inkişaf edir, yeni uğurlar qazanır, Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır.

Öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zamanımızın görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmiş dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

***Azər QARAYEV,***
***Azərbaycan təhlükəsizlik orqanlarının veteranı,***
***DTX-nin fəxri əməkdaşı, Birinci Qarabağ müharibəsinin veteranı,***
***istefada olan polkovnik***